# Pasxa bayramı qeyd olunub



***Nic qəsəbəsində yaşayan udilər Pasxa bayramını qeyd ediblər. Qəsəbədəki "Cotari" kilsəsində təşkil olunan bayram mərasimində iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və rayonun hüquqmühafizə orqanlarının, bir sıra idarə və təşkilatların rəhbərləri Alban-Udi Xristian Dini İcmasının üzvlərini və qəsəbə sakinlərini Pasxa bayramı münasibətilə təbrik ediblər.***

Alban-Udi Xristian Dini İcmasının rəhbəri, kilsənin keşişi və icmanın üzvləri çıxış edərək Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin diqqət və qayğısından danışıblar. Natiqlər rayonda udilərə qarşı heç bir ayrı-seçkiliyin olmadığını, kilsənin əsaslı şəkildə bərpasının ölkədə tolerantlığa gözəl nümunə olduğunu qeyd ediblər.

Sonra kilsədə şamlar yandırılıb, dualar oxunub. Dini ayinlərin icrasından sonra "Cotari" kilsəsinin həyətində udi xalqının qədim "Kala Axsibay" bayramı qeyd olunub. Bayram tədbirində udi xalqının qədim ənənəsi canlandırılıb, udi dilində ifa olunan mahnılar, hazırlanan müxtəlif şirniyyatlar hamıda xoş əhval-ruhiyyə yaradıb.

Hazırda tolerantlığın kiçik modeli hesab edilən Nic qəsəbəsində 3 kilsə, iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Həmçinin Oğuz və Bakıda 300 udi qeydiyyatdadır. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Beynəlxalq Autizm Məlumatlandırma Günü ilə əlaqədar təlim




***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində "2 Aprel Beynəlxalq Autizm Günüdür" adlı təlim keçirilmişdir. 20 nəfərin qatıldığı təlimdə rayonunun müxtəlif məktəblərinin psixoloqları, uşaq bağçalarının tərbiyəçiləri, Qəbələ regional "ASAN xidmət"in əməkdaşları, nevropatoloq həkim, autizmli uşaqlar və onların valideynləri iştirak etmişlər.***

Təlimdə bildirilib ki, 2 Aprel - Dünya Autizm Məlumatlandırma Günü 18 dekabr 2007- ci il tarixdə Qətər dövlətinin təklifi əsasında BMT-də təsis edilmişdir.

Autizmin bir sindrom olduğu vurğulanan tədbirdə qeyd olunmuşdur ki, ölkəmizdə 5000-ə yaxın uşaq bu sindromdan əziyyət çəkir. Diqqətə çatdırılmışdır ki, dünya dövlətləri arasında ölkəmiz autizm sindromlu uşaqların artımına görə 3-cü yerdədir.

Təlimdə autizmli uşaqların nələri xoşlamadığı, qıcıqlandırıcı reaksiyalar zamanı onların hansı hərəkətləri edə biləcəyi haqqında məlumatlar verilmişdir.

Vurğulanmışdır ki, bu xəstəliyin müayinəsi və müalicəsi ilə həkim psixiatr məşğul olur. Autizmin müalicəsinin çox çətin və uzunmüddətli proses olduğu təlim iştirakçılarının nəzərinə çatdırılmışdır.

**Rüfət ƏHMƏDOV,**
**uşaq və ailələrə dəstək mərkəzinin psixoloqu.**

# İnşaatçı şərəfli peşədir

***10 aprel Azərbaycan inşaatçılarının peşə bayramıdır.***

***İnşaatçını başqa peşə sahiblərindən fərqləndirən cəhət onun işinin həmişə göz qabağında olmasıdır. Hamımız etiraf edirik ki, bugünkü Azərbaycan nəinki 20-25, hətta 2-3 il əvvəlki ölkə deyil. O büsbütün abadlaşıb, gözəlləşib, təkrarsız tikililərlə tanınmaz olub. Özü də bunu təkcə biz demirik, ölkəmizə müxtəlif məqsədlərlə gələn qonaqlar da etiraf edirlər.***

Bəs, bu fəxr olunası, qürur duyulası reallığı kim yaradır? Təbii ki, inşaatçılar. O inşaatçılar ki, bu gün təkcə yaşayış binaları, məktəblər, xəstəxanalar, uşaq bağçaları, ticarət və xidmət obyektləri tikmirlər. Onlar həm də Azərbaycanda yeni sənaye müəssisələri inşa edirlər, körpülər salırlar, yol çəkirlər və bununla da ölkədə prioritet fəaliyyət istiqaməti elan olunmuş qeyri-neft sektorunun inkişafına öz töhfələrini verirlər. Bu baxımdan Azərbaycanın qeyri-neft sektorunda inşaat bölməsinin payının kifayət qədər yüksək olması təsadüfi sayıla bilməz.

Azərbaycanın inşaat sektorunda keçən ilə aid hesabata qısa nəzər salaq: ötən il ölkədə 11,8 milyard manatlıqdan çox məhsul istehsalı, 2,8 milyard manatlığa yaxın xidmət sahələri obyektləri, 891 milyon manatlıq ümumi sahəsi 1,7 milyon kvadratmetrdən çox olan yaşayış binaları tikilmişdir. 2017-ci ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 16,1 faizi tikinti işlərinə sərf olunmuşdur. Ötənilki 70,1 milyard manatlıqdan çox ümumi daxili məhsulun isə 9,5 faizi tikinti sektorunda istehsal edilmişdir. Yalnız keçən il ölkə üzrə müxtəlif təyinatlı yüzlərlə sənaye və sosial obyektlər tikilib istifadəyə verilmişdir.

Tikinti quruculuq sahəsində ən yüksək sürətlə irəliləyən bölgələrdən biri də Qəbələ rayonudur. Son 15 ildə Qəbələdə nəhəng konserv zavodu, üzüm məhsulları istehsalı zavodu, fındıq məhsulları emalı zavodu, piano fabriki, müasir tələblərə cavab verən müalicə diaqnostika mərkəzi, 5 və 4 ulduzlu otel kompleksləri, sağlamlıq istirahət mərkəzləri ümumtəhsil məktəbləri üçün binalar, 2 ədəd peşə tədris mərkəzi binası, konqres mərkəzi, rayon mədəniyyət mərkəzi, xalça fabriki, yüksək mərtəbəli yaşayış binaları və sair tikilib istifadəyə verilmişdir. Tikinti quruculuq sahəsində görülmüş işlər nəticəsində Qəbələnin siması bütövlüklə dəyişmişdir.

**Bayramınız mübarək hörmətli inşaatçılar!**

***«Qəbələ»***

# Müstəqil siyasətin bayraqdarı

***Aprelin 5-də Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib.

Nazirlər konfransında Qoşulmama Hərəkatında iştirak edən, həmçinin Hərəkat yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri olmaqla ümumilikdə 800-dən artıq şəxs iştirak edib. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan Qoşulmama Hərəkatı müasir dünyada öz aktuallığını daha da artırır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rola malikdir. Azərbaycan Respublikası da Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına və 2019-cu ildə Bakıda keçiriləcək Zirvə görüşünə ev sahibliyi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etməklə onun məqsəd və məramlarının təşviq olunmasına, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsinə əsaslı töhfəsini verir.

Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçiriləcək 18-ci Sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Sammitindən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edəcək. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcək. Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olub. Onu da deyək ki, Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat isə Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir.

Konfransdan əvvəl birgə foto çəkdirilib.

# Ümumdünya sağlamlıq günü

7 aprel səhiyyə təşkilatlarının beynəlxalq əlaqələrini təmin edən, dünya əhalisinin sağlamlıqla bağlı problemlərinin həllini mühüm sayan BMT-nin ixtisaslaşmış qurumlarından birinin - Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yarandığı gündür. 1948-ci ildə birinci Ümumdünya Səhiyyə Assambleyası Ümumdünya Səhiyyə Təşkilatının yaradılmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq Gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Təşkilatın nizamnaməsi təsdiq olundu. 1950-ci ildən dünya ictimaiyyəti hər il aprelin 7-də bu tarixi günü yüksək səviyyədə qeyd edir. 200-ə yaxın dövləti özündə birləşdirən ÜST sağlamlığı insan həyatının mühüm amili hesab edir, hər bir ölkənin vətəndaşlarının xəstə və fiziki qüsurlu olmaması, əlverişli mənəvi, ictimai şəraitdə yaşaması üçün çalışır.

Ölkəmizdə həyata keçirilən sosialyönümlü inkişaf strategiyası ÜST-ün ötən illər ərzində qarşıya qoyduğu problemlərin həllinə yönəldilib. Son illər respublikamızda əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində, keyfiyyətin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilən dövlət proqramlarının xüsusi rolu var. Ölkəmizdə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı" çərçivəsində mütəmadi ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən neonatoloji reanimasion şöbələrin maddi- texniki bazası gücləndirilir, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılır. Respublikamızda həyata keçirilən bu tədbirlər nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika əldə edilib.